UOT32
https://doi.org/10.30546/ifs.2026.2.47.1374

ABŞ-DƏ ERMƏNİŞÜNASLIQ MƏRKƏZLƏRİ VƏ ONLARIN FƏALİYYƏT İSTİQAMƏTLƏRİ

Şərqiyyə İmaməli
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, **Azərbaycan**
sherqiyyeimameli@gmail.com
https://orcid.org/0009-0000-1070-5715

Xülasə. Məqalədə ABŞ-də fəaliyyət göstərən erməni diaspora təşkilatlarının strukturu, təsir mexanizmləri və fəaliyyət istiqamətləri təhlil olunur. Araşdırmada göstərilir ki, ANCA və AGCA kimi qurumlar konqres, administrasiya və yerli səviyyələrdə lobbiçilik fəaliyyəti apararaq ABŞ-nin Ermənistanla bağlı siyasətinə ciddi təsir göstərirlər. Media sahəsində isə diasporun informasiya şəbəkələri cəmiyyətin gündəmini və ictimai rəyi yönləndirmək üçün istifadə olunur. Məqalədə bu təsisatların koordinasiyalı fəaliyyəti nəticəsində erməni məsələsinin ABŞ siyasətində uzunmüddətli və sabit mövzuya çevrildiyi vurğulanır. Həmçinin iqtisadi və humanitar layihələr vasitəsilə diasporun Ermənistanın daxili və xarici siyasətinə də təsir göstərdiyi qeyd olunur. Tədqiqat ABŞ-də erməni diasporasının güclü maliyyə, informasiya və intellektual resurslara malik olduğunu nümayiş etdirir. Bununla yanaşı, onların fəaliyyətinin regional proseslərdə tarazlığı pozduğu və siyasi qərarların obyektivliyinə təsir etdiyi bildirilir.

Açar sözlər: erməni, mərkəz, diaspora, ABŞ, institut

ARMENİAN STUDİES CENTERS İN THE UNİTED STATES: THEİR AREAS OF ACTİVİTY

Sharqiyya Imamali

Abstract. The article analyzes the organizational structure, mechanisms of influence and areas of activity of Armenian diaspora organizations operating in the United States. The study shows that organizations such as ANCA and AGCA significantly influence US policy towards Armenia by lobbying at the congressional, administrative and local levels. In the media, the information networks of the diaspora are used to shape the public agenda and influence public opinion. The article emphasizes that as a result of the coordinated activities of these institutions, the Armenian issue has become a long standing issue in US politics. The article also notes that the diaspora also influences Armenia's domestic and foreign policy through economic and humanitarian projects. The study demonstrates that the Armenian diaspora in the United States has strong financial, informational and intellectual resources. At the same time, it is stated that their activities disrupt the balance in regional dynamics and affect the political decision - making.

Keywords: Armenian, center, diaspora, USA, institute

ЦЕНТРЫ АРМЕНОВЕДЕНИЯ В США И НАПРАВЛЕНИЯ ИХ ДЕЯТЕЛЬНОСТИ

Шаргия Имамали

Резюме. В статье анализируется структура, механизмы влияния и направления деятельности организаций армянской диаспоры, действующих в Соединенных Штатах. Исследование показывает, что такие организации, как АНКА и АГКА, оказывают значительное влияние на политику США в отношении Армении посредством лоббирования на уровне Конгресса, а также административных и местных органов власти. В медийной сфере информационные сети диаспоры используются для формирования повестки дня общества и общественного мнения. В статье подчеркивается, что в результате скоординированной деятельности этих институтов армянский вопрос стал долгосрочной и устойчивой темой в политике США. Также отмечается, что диаспора влияет на внутреннюю и внешнюю политику Армении посредством экономических и гуманитарных проектов. Исследование демонстрирует, что армянская диаспора в Соединенных Штатах обладает мощными финансовыми,

информационными и интеллектуальными ресурсами. В то же время утверждается, что ее деятельность нарушает баланс в региональных процессах и влияет на объективность политических решений.

Ключевые слова: армянская диаспора, США, лоббирование, международные отношения

Giriş

XIX əsrin sonu – XX əsrin əvvəllərində Osmanlı imperiyasında baş verən sosial-iqtisadi və siyasi proseslər erməni icmasının milli kimliyinin formalaşmasına və miqrasiya meyillərinin güclənməsinə mühüm təsir göstərmişdir. Uzunmüddətli müharibələr nəticəsində sənaye və ticarət sahələrinin əsasən qeyri-müsəlman təbəələrin nəzarətinə keçməsi ermənilərin iqtisadi baxımdan güclənməsinə şərait yaratmışdır. Zamanla dini kimlikdən daha çox, milli ideologiyanın ön plana çıxması, kollektiv yaddaşın formalaşması və “tarixi ədalətsizlik” diskursunun yayılması erməni diasporasının ideoloji əsaslarını möhkəmləndirmişdir. ABŞ-yə yönələn erməni miqrasiyası isə əsasən iqtisadi imkanlar, sənayeləşmə prosesi və təhlükəsizlik narahatlıqları ilə bağlı olmuş, bu proses nəticəsində kilsə, mətbuat və ictimai təşkilatlar ətrafında formalaşan icmalar klassik diaspora modelinin səciyyəvi xüsusiyyətlərini ortaya qoymuşdur.Bu proses sosial konstruktivizm yanaşması baxımından dəyərləndirildikdə, erməni kimliyinin sosial münasibətlər və kollektiv təcrübələr əsasında yenidən qurulması aydın görünür.

Nəticə olaraq, erməni köçü bir neçə səbəbə dayanırdı:iqtisadi çətinliklər, təhsil imkanları,dini-milli təşkilatların təbliğatı, təhlükəsizlik narahatlıqları, siyasi amillər

Beləliklə, ABŞ-dəki erməni icması həm sosial adaptasiya, həm də milli kimliyin qorunması baxımından klassik diaspora modelinin əsas xüsusiyyətlərini özündə birləşdirən kompleks bir fenomendir.

ABŞ-də ermənişünaslıq mərkəzləri

Bu gün ABŞ-də bir sıra ermənişünaslıq mərkəzləri fəaliyyət göstərir. ABŞ-dəki ermənişünaslıq mərkəzlərinin bir çox xüsusiyyətləri var ki, bunlar tarixi, coğrafi, siyasi, demoqrafik, mədəni və təhsil kimi bir çox amillərlə müəyyən olunur.

Bu gün ABŞ-də erməni icmasının qarşısında bir sıra çağırışlar dayanır. Ən xarakterik məsələlərdən biri milli şüurun qorunması, erməni icmasının birləşdirilməsi, siyasi təsir gücünün artırılması və digər məsələlərdir. Bu problemlərin həlli ABŞ-də yaşayan ermənilərin qorunması, assimilyasiya riskinin neytrallaşdırılması və xalqın qarşısında duran çağırışlara aktiv şəkildə qatılmasından asılıdır.

ABŞ-dəki ermənişünaslıq mərkəzləri aşağıdakı qruplara bölünür:

1. Ermənişünaslıq institutları.

Bu qrupa ABŞ-də elm-tədqiqat fəaliyyəti ilə məşğul olan ermənişünaslıq müəssisələri daxildir. Bu qrupa Dirbörn, Miçiqan Universitetinin ermənişünaslıq mərkəzini daxil etmək məqsədəuyğundur. Bu mərkəz universitetin tərkibində fəaliyyət göstərməsinə baxmayaraq, təhsil-tərbiyə məsələlərini həll etmir, əsasən elm-tədqiqat işləri ilə məşğuldur.

2. Ermənişünaslıq cəmiyyətləri.

ABŞ-də ermənişünaslıq cəmiyyətləri əsasən təhsil və elmi təşkilatçılıq işləri ilə məşğuldur.

3. Ermənişünaslıq kafedraları.

Ermənişünaslıq kafedralarında müxtəlif ermənişünaslıq fənləri tədris olunur.

4. Kafedraların fəaliyyəti yalnız kursların təşkili ilə məhdudlaşmır, həm də elmi-tədqiqat və nəşriyyat işlərini əhatə edir.

5. Ermənişünaslıq proqramları.

Ermənişünaslıq proqramları erməni tarixi, dili, ədəbiyyatı və mədəniyyətinə həsr olunmuş kurslar, seminarlar, mühazirələr təşkil edir, fəaliyyətlərini işıqlandıran periodik nəşrlər yayımlayır və tədris prosesinə dəstək olan dərsliklər hazırlayır. Bu qrupa ABŞ-dəki müxtəlif universitetlərdə fəaliyyət göstərən ermənişünaslıq proqramları və kursları daxildir [1].

Ermənişünaslıq institutları

ABŞ-də ermənişünaslığın inkişafında Komitas, Zoryan və Erməni Milli İnstitutları mühüm rol oynayır. Burada aparılan elmi-tədqiqat işləri, monoqrafiyaların, məcmuələrin və dövri nəşrlərin çapı böyük elmi əhəmiyyət daşıyır. Xüsusilə erməni tarixinin öyrənilməsi istiqamətində görülən işlər diqqəti cəlb edir.

Zoryan İnstitutu (Müasir ermənişünaslıq tədqiqatları və sənədləşdirmə mərkəzi) 1982-ci ildə Kembric şəhərində yaradılmışdır. Zoryan İnstitutu üç əsas elmi layihə həyata keçirir [3]:

1. Diasporanın öyrənilməsi;
2. Soyqırımın sənədləşdirilməsi;
3. Açıq universitet – Ermənistan və ermənilərlə bağlı seminarlar, mühazirələr, elmi konfranslar təşkil olunur.

İnstitutun filialları Los-Anceles, Toronto və Parisdə fəaliyyət göstərir. Zoryan İnstitutu həm diasporanın, həm də Ermənistanın bir sıra elmi təşkilatları və alimləri ilə praktiki əməkdaşlıq əlaqələrinə malikdir.

Komitas İnstitutu Ermənistan və ermənilər, xüsusilə erməni tarixi ilə bağlı nəşrlər həyata keçirir. Bu institut 1992-ci ildə Prinston şəhərində yaradılmışdır. İnstitut sərgilər, mühazirələr, elmi konfranslar təşkil edir və 1998-ci ildən “Armenian Forum” adlı elmi jurnalı nəşr edir [4].

Erməni Milli İnstitutu (Armenian National Institute – ANI) Vaşinqtonda fəaliyyət göstərir və əsasən “erməni soyqırımı”nın tədqiqi ilə məşğuldur [5].

Elmi-tədqiqat işləri həmçinin Miçiqan ştatının Dirbörn (Dearborn) şəhərində yerləşən Miçiqan Universitetinin Ermənişünaslıq Mərkəzində də aparılır. Bu mərkəz ABŞ-nin digər universitetlərindəki ermənişünaslıq fakültələrindən fərqli olaraq dərs keçmir, yalnız elmi-tədqiqat işi ilə məşğuldur.

Miçiqan Universitetinin Erməni Araşdırmaları və Nəşriyyat Mərkəzi 1985-ci ildə yaradılmışdır. Onun qurucu direktoru D.Papazyan olmuşdur. Mərkəzdə erməni tarixinin, mədəniyyətinin, dilinin və ədəbiyyatının müxtəlif məsələləri araşdırılır. Bundan əlavə, mərkəz ermənişünaslıq sahəsində keçirilən elmi konfranslara dəstək verir və “ARC Newsletter” adlı dövri elmi bülleten nəşr edir.

Ermənişünaslıq cəmiyyətləri

ABŞ-də ermənişünaslığın inkişafına mühüm töhfə verən qurumlardan biri Ermənişünaslıq Tədqiqatları və Araşdırmaları Milli Assosiasiyası (National Association for Armenian Studies and Research– NAASR) və Erməni Araşdırmaları Cəmiyyətidir (Society for Armenian Studies – SAS).

1955-ci ildə Belmont şəhərində 60 erməni ziyalısının və Harvard Universitetinin professorlarının təşəbbüsü ilə Ermənişünaslıq Tədqiqatları və Araşdırmaları Milli Assosiasiyası (NAASR) yaradılmışdır. Mərkəzi Kembricdə yerləşir [6].

NAASR ABŞ-nin bir sıra universitetlərində ermənişünaslıq kafedralarına və dərs proqramlarına dəstək göstərir. Xüsusilə erməni xalqının tarixinə və mədəniyyətinə həsr olunmuş ədəbiyyat əldə olunur və ölkə daxilində yayılır.

Assosiasiya ermənişünaslıq mövzularında mühazirələr təşkil edir, elmi tədqiqatların nəşrinə yardım edir. Toplanmış maliyyə vəsaiti sayəsində ABŞ-nin müxtəlif universitetlərində erməni araşdırmaları üzrə kafedralar açılmışdır.

NAASR həmçinin “Erməni İrsi Nəşriyyatı” (“Armenian Heritage Press”) adlı nəşriyyat təsis etmişdir. Bundan əlavə, təşkilat 1975-ci ildən “Erməni Araşdırmaları Jurnalı” (“Journal of Armenian Studies”) və “NAASR Newsletter” adlı rüblük bülleten nəşr edir [2].

1974-cü ildə professor Riçard Hovanisyanın təşəbbüsü ilə Kaliforniya, Kolumbiya və Harvard universitetlərinin bir qrup alimləri tərəfindən Erməni Araşdırmaları Cəmiyyəti (Society for Armenian Studies – SAS) yaradılmışdır.

Əvvəlcə Miçiqan Universitetinin Dirbörn şəhərində fəaliyyət göstərən bu cəmiyyət sonradan Kaliforniya ştatının Frezno Universitetinə köçürülmüşdür. Cəmiyyətin prezidenti doktor Kevork Bardakçyandır.

SAS-a 200-dən çox alim və tələbə üzvdür. Onun məqsədi – erməni tarixi, mədəniyyəti, ədəbiyyatı, sosial və siyasi məsələlərin tədqiqi və yayılmasını təşviq etmək, bu sahədə simpoziumlar və elmi konfranslar təşkil etməkdir. Cəmiyyət “SAS Newsletter” bülletenini, həmçinin bir sıra digər elmi jurnalları da nəşr edir [2].

Ermənişünaslıq kafedraları

ABŞ-nin bir sıra universitetlərində ermənişünaslıq kafedraları fəaliyyət göstərir. Nyu-Yorkdakı Kolumbiya Universitetinin ermənişünaslıq kafedrası 1965-ci ildə yaradılıb. Kafedranın rəhbəri Mark Nşanyandır. Burada tədris olunan fənlər bunlardır: erməni dili, ədəbiyyat tarixi, erməni xalqının tarixi və incəsənət tarixi. Kafedra ermənişünaslıq sahəsində elmi tədqiqatlar dərc edir və tərcümələr həyata keçirir [7].

Los-Ancelesdəki Kaliforniya Universitetinin Narekatsi adına ermənişünaslıq kafedrası 1969-cu ildə Yaxın Şərq dilləri və mədəniyyətləri fakültəsində Avetis Sanjyanın rəhbərliyi ilə yaradılıb. Burada

qədim erməni dili (qrabar), erməni ədəbiyyatı, dil və mədəniyyət tarixi, həmçinin tarixşünaslıq fənləri tədris olunur.

Kaliforniya universiteti Los-Angelesin (UCLA) ermənişünaslıq kafedrası mütəxəssislərə və tələbələrə beynəlxalq elmi konfranslarda iştirak üçün dəstək verir, mühazirələr təşkil edir, nadir erməni əlyazmalarının və xüsusi mövzulara həsr olunmuş materialların sərgilərini keçirir. Kafedranın rəhbəri *Peter Cowie*dir.

Kaliforniya Universitetinin Erməni Təhsil Fondunun Müasir Erməni Tarixi Departamenti 1988-ci ildə UCLA Tarix Departamentinin tərkibində yaradılmışdır. Bu tədris proqramı, kafedranın yaradılmasından əvvəl, 1962-ci ildən etibarən *Richard Hovannisian*ın səyləri ilə Tarix fakültəsində həyata keçirilirdi. Proqram qədim, orta əsrlər və müasir erməni tarixi, Qafqazın tarixi, tarixşünaslıq və şifahi tarix mövzularını əhatə edir. Kafedranın rəhbəri *Richard Hovannisian*dır [8].

Ermənişünaslıq proqramları

Harvard Universitetinin (Cambridge) ermənişünaslıq proqramı 1960-cı ildə Şərq dilləri bölməsində yaradılıb. Proqram erməni dili, ədəbiyyatı və tarixi fənlərini əhatə edir. Proqramın rəhbəri ermənişünas alim Ceyms Rasseldir.

Miçiqan Universitetinin Ann Arbor kampusunda ermənişünaslıq proqramı 1976-cı ildə Slavyan dilləri və ədəbiyyatı fakültəsində yaradılıb və Qərbi erməni dili ilə erməni tarixinin tədrisi ilə başlayıb.

1981-ci ildən Tarix fakültəsində yerləşən Müasir Erməni Tarixi kafedrasını Alek Manukyan, 1987-ci ildən əvvəlcə Slavyan dilləri və ədəbiyyatı fakültəsində, 1997-ci ildən isə Yaxın Şərq tədqiqatları fakültəsində fəaliyyət göstərən Mari Manukyan Erməni dili və ədəbiyyatı kafedrasını idarə edir. Kafedralar mütəmadi olaraq elmi konfranslar keçirir və mühazirələr təşkil edir. Proqram çərçivəsində erməni tarixi, dili, ədəbiyyatı və mədəniyyəti ilə bağlı çoxsaylı fənlər tədris olunur. Hər il İrəvanda keçirilən Erməni Dili Yay İnstitutu erməni dilinin intensiv tədris proqramını həyata keçirir. Proqram çərçivəsində məlumat bülleteni dərc olunur [2].

Kaliforniya Universitetində fəaliyyət göstərən, Fresno Erməni Araşdırmaları Mərkəzi 1970-ci illərdən etibarən ermənişünaslıq dərsləri təşkil edir. Proqram rəsmi olaraq 1988-ci ildə T.Guyumjyanın təşəbbüsü və Hayk və İzabel Berberyanın maddi dəstəyi ilə təsis edilib. Proqram erməni dili, ədəbiyyatı, tarixi, mədəniyyəti, kilsəsi, memarlığı, ABŞ-dəki erməni icması və müasir Ermənistanla bağlı mövzuları əhatə edir. Proqram Saakyan kitabxanası və Avedyan arxivlərini dəstəkləyir. Fresno Erməni Araşdırmaları Mərkəzinin təşəbbüsü ilə “Hay Oozh” və “Amen Inch Hayeren” adlı radio proqramları yayımlanır, həmçinin “Hye Sharzhoom” jurnalı nəşr olunur. 1992-ci ildə Kaliforniya Universiteti, Fresno ilə Yerevan Dövlət Universiteti arasında müəllim və tələbə mübadiləsi proqramı imzalanıb. Armenian Studies Program at California State University, Fresno həmçinin Ermənistanda da kurslar təşkil edir. Kaliforniya Dövlət Universitetinin Erməni Araşdırmaları Proqramının öz internet saytı var: armenianstudies.csufresno.edu. Saytda mərkəzin fəaliyyətinə dair məlumatlarla yanaşı, erməni incəsənətinə aid ətraflı bölmələr təqdim olunur: memarlıq, miniatür rəssamlıq, heykəltəraşlıq, keramika, metal emalı, sikkə zərbi, zərgərlik, xalçaçılıq, tikiş və naxış, musiqi və kitab sənəti. Erməni tədris proqramı çərçivəsində Kaliforniya Dövlət Universitetində erməni tarixi, ədəbiyyatı, incəsənəti, memarlığı və kinosu tədris olunur. Erməni dili, ədəbiyyatı və tarixi üzrə dərslər Xarici Dillər və Ədəbiyyat, həmçinin Tarix bölmələrində keçirilir. Dərs proqramı iki hissədən ibarətdir: erməni dili və ermənişünaslıq elmi [2].

Təqaüdlər – hər il Kalifornia Dövlət Universiteti, Fresno Erməni Tədqiqatları Mərkəzi Ermənistan və ermənilərlə maraqlanan tələbələrə dəstək məqsədilə 60.000 dollardan çox təqaüd və qrant ayırır. Təqaüdlər yalnız erməni mənşəli tələbələr üçün deyil, həm də Erməni Tədqiqatları Mərkəzinin kurslarını keçən bütün tələbələr üçün nəzərdə tutulub. Təqaüdlərlə yanaşı, Erməni Tədqiqatları Mərkəzi bütün təhsil xərclərini öz üzərinə götürür. Bundan əlavə, Erməni Tədqiqatları Proqramında yüksək orta bal toplayan və erməni tarixi, incəsənəti və ya ədəbiyyatının tədqiqi ilə maraqlanan tələbələrə ayrıca elmi-tədqiqat qrantları verilir. Los-Anceles, San-Fransisko, Fresno, Boston, Providens, Mautfild və Nordvil şəhərlərində erməni dilində və ingilis dilində radio və televiziya proqramları yayımlanır.

“Hər şey erməni dilində” adlı radio proqramı həftədə bir dəfə, bir saatlıq efir zamanı ilə hazırlanır və bu proqram Kalifornia Dövlət Universiteti, Fresnonun Erməni Tədqiqatları Proqramı tərəfindən hazırlanır.“Hay Uj” (yəni “Erməni Gücü”) radio proqramı isə 1991-ci ildən yayımlanır. Bu proqramda klassik, müasir, xalq musiqisi və digər janrlarda erməni musiqisinin bütün növləri yer alır.

Hər həftə efir üçün erməni musiqisini hazırlamaq istiqamətində mühüm işlər görülür. “Hay Uj” radio proqramı hər həftə yayımlanır.

Erməni Tədqiqatları Proqramının İrəvanda keçirilən dərsləri – Kalifornia Dövlət Universiteti, Fresnonun Erməni Tədqiqatları Proqramı Ermənistanda erməni dili, tarixi, incəsənəti və müasir hadisələrə həsr olunmuş dərs proqramları təşkil edir [2]. Proqram beş əsas dərs kursundan ibarətdir:

1. Erməni dili.2. Erməni incəsənəti və memarlığı.3Bugünkü Ermənistan.4.Ermənişünaslıq. 5Müstəqillik dövrü.

Dərs proqramı Kalifornia Dövlət Universiteti, Fresnonun Erməni Tədqiqatları Proqramı tərəfindən hazırlanır.

Fresno Erməni Tədqiqatları Mərkəzinin fəaliyyəti ABŞ-dəki erməni icmasının, xüsusilə də Kaliforniyadakı erməni diasporasının normal inkişafına töhfə verir. Bu mərkəzin fəaliyyəti sayəsində ermənişünaslıq yalnız ABŞ-də deyil, bütün dünyada inkişaf edir.

Elmi fəaliyyətlə yanaşı, bu mərkəz ABŞ-də yaşayan ermənilərin təhsilinə də dəstək verir. Nəticədə, mərkəz yalnız elmin inkişafına deyil, həm də ABŞ erməni icmasında milli kimliyin qorunmasına mühüm töhfə verir. Fresno Erməni Tədqiqatları Mərkəzi, vətəndən uzaqda – başqa ölkələrdə ermənişünaslığın inkişafını təmin edən özünəməxsus bir təşkilatdır. Qloballaşan dünyada diaspora icmalarında milli kimliyin qorunması məsələsi çox aktualdır və bu problemin həllinə həm Ermənistanda, həm də diasporada fəaliyyət göstərən müxtəlif təşkilatlar, birliklər və mərkəzlər yönəlmişdir. Bu təşkilatlar arasında Kaliforniya Dövlət Universiteti, Fresnonun Erməni Tədqiqatları Mərkəzi öz strukturları ilə xüsusi yer tutur.

1994-cü ildə Kaliforniya Universiteti, Berklinin Slavyan və Şərqi Avropa Tədqiqatları Mərkəzində Vilyam Saroyanın adını daşıyan ermənişünaslıq proqramı təsis olundu. Əvvəlcə məhdud dərs proqramı kimi başlayan bu təşəbbüs sonradan genişlənərək ermənişünaslıq fənləri üzrə dərs kurslarını və mühazirələri əhatə etməyə başladı. Proqrama rəhbərlik Stepan Asturyan edir.

Kaliforniya Dövlət Universiteti, *Northridge*-də ermənişünaslıq dərsləri 1983-cü ildə Müasir və Klassik Dillər Bölməsində başlanıb. Erməni dili və mədəniyyəti kurslarının təşkili işində Universitetin Erməni Tələbə Birliyi və Hermine Mahserdjian mühüm rol oynayıblar. 2000-ci ildə proqram rəsmi olaraq universitet tərəfindən tanınıb və Müasir və Klassik Dillər və Ədəbiyyat Bölməsinə birləşdirilib. 2004-cü ildə Yerevan Dövlət Universiteti ilə əlaqələr yaradılıb.

Amerika İlahiyyat Seminariyasının Pasadena filialında Erməni İlahiyyatı bölməsi 1983-cü ildə G.Haleblyanın rəhbərliyi ilə yaradılıb. Məzunlara magistr və doktor elmi dərəcələri verilir.

Beləliklə, ABŞ-də fəaliyyət göstərən ermənişünaslıq mərkəzləri bu ölkədə ermənişünaslığın inkişafı, bu sahədə fənlərin tədrisi və elmi ədəbiyyatın nəşri baxımından mühüm əhəmiyyət daşıyır. Bu mərkəzlər erməni tarixi, dili, ədəbiyyatı və mədəniyyəti üzrə mütəxəssislər yetişdirirlər.

ABŞ-də fəaliyyət göstərən mərkəzlərin Ermənistanın daxili siyasətinə təsiri

ABŞ-də inkişaf edən ermənişünaslıq və onunla qarşılıqlı əlaqədə fəaliyyət göstərən erməni diasporası Ermənistanın daxili siyasətinə çoxşaxəli və kompleks təsir göstərir. Bu təsir ilk növbədə ideoloji müstəvidə özünü büruzə verir. ABŞ akademik dairələrində formalaşan tarixi interpretasiyalar və milli kimlik diskursları Ermənistan daxilində *“identity construction”* prosesinə təsir edir. Bu yanaşmalar təhsil proqramlarına, dərsliklərə və ictimai müzakirələrə daxil edilərək cəmiyyətin siyasi düşüncə tərzinin formalaşmasında mühüm rol oynayır. Nəticə etibarilə, tarix siyasəti və milli identiklik məsələləri daxili siyasi gündəliyin ayrılmaz hissəsinə çevrilir.

Bununla yanaşı, diasporanın maliyyə və siyasi resursları Ermənistanın daxili siyasi sistemində *“political leverage”* formalaşdırır. Xüsusilə seçki dövrlərində diaspora tərəfindən maliyyələşdirilən kampaniyalar və dəstəklənən siyasi aktorlar müəyyən üstünlük əldə edə bilirlər. Bu vəziyyət bəzi hallarda daxili siyasi rəqabətin təbii balansını poza və xarici təsirin artmasına səbəb ola bilər. Məsələn, müxtəlif siyasi transformasiya mərhələlərində diaspora dəstəyinin müəyyən siyasi qüvvələrin legitimliyinə təsir göstərdiyi müşahidə olunmuşdur. Bu isə onu göstərir ki, diaspora yalnız iqtisadi deyil, eyni zamanda siyasi təsir aləti kimi çıxış edir

İnformasiya müstəvisində də bu təsir açıq şəkildə hiss olunur. ABŞ-də fəaliyyət göstərən erməni media platformaları və *“transnational communication networks”* vasitəsilə formalaşdırılan informasiya axını Ermənistan ictimai rəyinə birbaşa təsir edir. Xüsusilə münaqişə, təhlükəsizlik və milli maraqlarla bağlı məsələlərdə ictimai mövqenin istiqamətləndirilməsi bu kanallar vasitəsilə həyata keçirilir. Bu

proses *“policy-making”* prosesinə dolayı təsir göstərərək dövlət qərarlarının ictimai legitimliyinin formalaşmasında rol oynayır.

Digər mühüm məqam diaspora təsirinin həm imkan, həm də risk xarakteri daşımasıdır. Bir tərəfdən, diaspora tərəfindən təmin edilən maliyyə resursları, investisiyalar və beynəlxalq dəstək Ermənistanın iqtisadi və siyasi inkişafına töhfə verir. Bu, xüsusilə kiçik dövlətlər üçün vacib xarici dəstək mexanizmi kimi qiymətləndirilə bilər. Digər tərəfdən isə bu cür *“external influence”* daxili siyasətdə asılılıq meyillərini gücləndirə bilər. Xarici aktorların daxili qərarvermə proseslərinə təsiri dövlətin suverenliyinə və müstəqil siyasət yürütmə imkanlarına mənfi təsir göstərə bilər. Bu baxımdan diaspora – təsiri birmənalı şəkildə müsbət və ya mənfi deyil, daha çox kontekstdən asılı olaraq dəyişən kompleks fenomendir.

Bundan əlavə, diasporanın təsiri siyasi gündəliyin prioritetləşdirilməsinə də təsir edir. Xaricdə formalaşan siyasi və ideoloji prioritetlər bəzən Ermənistan daxilində sosial-iqtisadi problemlərdən daha çox ön plana çıxarıla bilər. Bu isə daxili siyasətdə resursların və diqqətin bölgüsündə disbalans yarada bilər. Uzunmüddətli perspektivdə isə bu tendensiya daxili siyasi sabitliyə təsir edə bilər. Nəticə etibarilə, ABŞ-də inkişaf edən ermənişünaslıq və diaspor fəaliyyəti Ermənistanın daxili siyasətinə ideoloji, siyasi və informasiya müstəvilərində çoxşaxəli təsir göstərir. Bu təsir həm *“political leverage”*, həm də *“external influence”* mexanizmləri vasitəsilə həyata keçirilir və dövlətin daxili siyasi dinamikasının formalaşmasında mühüm rol oynayır. Mövcud şəraitdə əsas məsələ bu təsirin balanslı şəkildə idarə olunması, diaspora ilə dövlət arasında qarşılıqlı faydalı münasibətlərin qurulması və milli maraqların qorunmasıdır.

Nəticə

Ermənilərin ABŞ-yə köçü sosial və iqtisadi amillərin vəhdəti ilə formalaşmış mürəkkəb bir proses olmuşdur. XIX əsrin sonlarından başlayaraq baş verən bu köç dalğası ilkin mərhələdə daha çox iqtisadi motivlərlə – sənaye sahəsində işləmək və daha yaxşı həyat şəraiti əldə etmək məqsədilə başlamış, lakin zaman keçdikcə siyasi və milli amillərlə də zənginləşmişdir. Birinci Dünya müharibəsi və sonrakı illərdə baş verən hadisələr, xüsusilə 1915-ci il hadisələrinin erməni təbliğatında xüsusi yer alması, ABŞ-yə köçən ermənilərin öz aralarında milli həmrəylik və təşkilatlanma zərurətini daha da gücləndirmişdir.

ABŞ-də məskunlaşan ermənilər qısa müddətdə iqtisadi cəhətdən öz mövqelərini möhkəmləndirmiş, eyni zamanda mədəni və siyasi sahələrdə də fəal fəaliyyət göstərmişlər. Onlar kilsə, məktəb, yardım və mətbuat orqanları yaradaraq milli kimliklərini qorumağa nail olmuşlar. Zamanla bu cəmiyyətlər güclü diaspora strukturuna çevrilmiş və ABŞ siyasətində mühüm təsirə malik lobbi təşkilatları formalaşdırmışdır.

Amerika Erməni Milli Komitəsi (ANCA) və Amerika Erməni Konqresi kimi qurumların fəaliyyəti nəticəsində erməni diasporası ABŞ Konqresində geniş dəstək qazanmış, Ermənistanın maraqlarını beynəlxalq səviyyədə müdafiə edən güclü təzyiq qrupuna çevrilmişdir. Bu prosesdə erməni əsilli siyasətçilər, jurnalistlər və ictimai xadimlər də aktiv rol oynamışlar.

Eyni zamanda, ABŞ-də fəaliyyət göstərən ermənişünaslıq mərkəzləri, kafedraları və proqramları yalnız elmi-tədqiqat məqsədlərinə xidmət etmir, eyni zamanda ABŞ-də yaşayan erməni icmasının milli kimliyinin qorunması, mədəni və mənəvi dəyərlərinin təbliği baxımından mühüm rol oynayır. Bu mərkəzlər vasitəsilə erməni dili, ədəbiyyatı, tarixi, incəsənəti və mədəniyyəti sistemli şəkildə öyrənilir, həm erməni, həm də qeyri-erməni alimlər tərəfindən beynəlxalq miqyasda tədqiq olunur.

Ermənişünaslıq kafedraları və proqramları Harvard, Kolumbia, UCLA, Miçiqan və Fresno kimi aparıcı universitetlərdə tədris olunur ki, bu da erməni mədəni irsinin akademik səviyyədə yaşadılmasına şərait yaradır. Xüsusilə Fresno Erməni Araşdırmaları Mərkəzi bu sahədə elmi, tədris və ictimai fəaliyyətin inteqrasiyası ilə fərqlənir.

Bununla yanaşı, ABŞ-də formalaşan erməni media orqanları – qəzetlər, jurnallar, televiziya və radio proqramları – həm diasporanın birliyini möhkəmləndirir, həm də erməni məsələlərinin beynəlxalq səviyyədə işıqlandırılmasına xidmət edir. “Hayrenik”, “Armenian Weekly”, “The Armenian Mirror-Spectator” kimi nəşrlər və ARTN Shant, USArmenia kimi televiziya kanalları milli təbliğatın əsas platformalarına çevrilmişdir.

Beləliklə, ABŞ-də ermənişünaslıq mərkəzlərinin və media qurumlarının fəaliyyəti təkcə elmi və mədəni məqsədlərlə məhdudlaşmır; onlar həm də diaspor ermənilərinin ictimai-siyasi həyatında mühüm rol oynayır, milli kimliyin qorunması və Ermənistanla əlaqələrin davam etdirilməsində vacib vasitə kimi

çıxış edirlər. Bu strukturlaşmış sistem ABŞ-nin erməni diasporası üçün həm elmi, həm də ideoloji dayağa çevrilmişdir.

İstifadə olunmuş ədəbiyyat

1. ամն հայ համայնքի քաղաքական ներուժը. դասակարգման փորձ, https://hal.science-/hal-03429977/document

2. ՀԱՅ ՀԱՄԱՅՆՔՆ ԱՄՆ-ՈՒՄ, http://www.noravank.am/upload/pdf/USA_book.pdf

3. Zoryan İnstitutunun rəsmi internet saytı, https://zoryaninstitute.org

4. Komitas İnstitutunun rəsmi saytı, http://www.gomidas.org

5. Erməni milli institutunun rəsmi internet saytı, http://www.armenian-genocide.org

6. Ermənişünaslıq Tədqiqatları və Araşdırmaları Milli Assosiasiyasının rəsmi internet saytı, http://www.naasr.org

7. Հայ սփյուռք հանրագիտարան, Երեւան, 2003, էջ 69:

8. Հայ սփյուռք հանրագիտարան, Երեւան, 2003, էջ 69-70:

Rəyçi: dos. Südabə Hüseynova